BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2010

## TARİX

# XIX ƏSRİN 60-90-cı İLLƏRİNDƏ ŞƏRQİ SLAVYAN ÖLKƏLƏRİNDƏ KƏND TƏSƏRRÜFATININ VƏZİYYƏTİ HAQQINDA

**T.T.VƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***veliyevtofiq@yahoo.com***

*Məqalədə XIX əsrin 60-90-cı illərində Şərqi Slavyan ölkələrində həyata keçirilən aqrar islahatlar, islahatların kənd təsərrüfatının inkişafına təsiri, əkinçiliyin əmtəə xarakteri alması, əmtəə maldarlığının genişlənməsi, taxıl istehsalı və onun ixracı, kənd təsərrüfatına kömək məqsədilə ipoteka banklarının təşkili və başqa məsələlərdən bəhs edilir.*

Bəhs edilən dövrdə Şərqi Slavyan ölkələri iqtisadi cəhətdən Avropanın inkişaf etmiş ölkələrindən geri qalırdılar. Bu geriliyin başlıca səbəbi bu ölkələrdə təhkimçilik hüququnun hakim olması idi. Təhkimçilik hüququ Rusiya imperiyasının tərkibində olan Ukrayna və Belorusiyada da mövcud idi.

II Aleksandr Rusiyada hakimiyyəti ələ aldıqdan sonra başa düşdü ki, Rusiyanı gerilik bataqlığından çıxarmaq üçün hər şeydən əvvəl təhkimçilik hüququnu ləğv etmək lazımdır.

Krım müharibəsindən (1853-1856) sonra müharibədə biabırcasına məğlub olan Rusiyanın iqtisadiyyatı bərbad vəziyyətə düşmüşdü. Feodalizmin böhranı hakim təbəqənin daxili siyasətinə də mənfi təsir göstərirdi. Rusiyanın apardığı müharibələr, çoxsaylı vergi və mükəlləfiyyətlər, istismarın daha da güclənməsi, təbii fəlakətlər (quraqlıq, aclıq və s.) nəticəsində əhalinin vəziyyəti ağırlaşmışdı. Ona görə də, ölkədə baş verən kəndli hərəkatı getdikcə güclənirdi. Kənddə yeni «Puqaçovçuluq» təhlükəsi yaranmışdı. 50-ci illərin sonunda mütləqiyyətin burjua islahatları keçirmək üçün hazırlıq işləri görməsi «yuxarıların» böhranının ən qabarıq təzahürü idi. Hələ 1856-cı il martın 30-da II Aleksandr Moskva zadəganları qarşısında çıxış edərkən demişdi ki, mən kəndlilərə şəxsi azadlıq verilməsinin əleyhinəyəm. Amma yaranmış çətin vəziyyət, təhkimçiliyin bundan sonra saxlanılmasının törədəcəyi təhlükə, şəxsi asılılığın aşağıdan deyil, yuxarıdan, yəni dövlət tərəfindən ləğvini zəruri etmişdir. Ona görə islahatların keçirilməsinə hazırlaşmaq lazımdır (1, 30-31).

1859-cu il avqustun sonuna yaxın «Kəndlilər haqqında Əsasnamə» demək olar ki, hazır idi. Lakin hazırlıq işləri ilə əlaqədar yaradılmış çoxsaylı komitə və komissiyalarda «Əsasnamə»də edilmiş dəyişiklik, həmçinin əlavələr prosesi uzadılırdı. Nəhayət, 1861-ci il yanvarın 28-də «Əsasnamə»nin layihəsi son mərhələyə – Dövlət Şurasına verildi. 1861-ci il fevralın 16-da layihənin müzakirəsi başa çatdırıldı. Bir

neçə gün sonra – fevralın 19-da II Aleksandr onu imzaladı. Elə həmin gün çar kəndlilərin şəxsi asılılığını ləğv edən Manifest verdi. Beləliklə də, əsrlərdən bəri geriliyə, zülmə və əsarətə səbəb olan təhkimçilik hüququ ləğv olundu (1, 44).

1861-ci il 19 fevral «Əsasnamə»si Avropa Rusiyasının 45 quberniyasını əhatə edirdi. Bu quberniyalarda 22563 min təhkimli kəndli, 1467 min nökər və 543 min fabrik-zavodlara təhkim edilmiş kəndli yaşayırdı. Şərqi Slavyan ölkələrində təhkimçilik hüququnun ləğvi birdəfəlik akt olmadığına görə bu proses hələ bir neçə on il davam etmişdi. Manifestdə göstərilirdi ki, qanun elan edildikdən sonra mülkədar kəndliləri 2 il əvvəlki vergiləri və mükəlləfiyyətləri ödəməli idilər. Ona görə də, bu kəndlilər «müvəqqəti-mükəlləfiyyətli» kəndli adlanırdı. Guya bu vəziyyət müvəqqətidir və uzun sürməyəcəkdir. Amma «müvəqqəti-mükəlləfiyyətli» vəziyyət düz 20 il davam etdi və 1881-ci ildə ləğv olundu. Bu ildən etibarən mülkədar kəndliləri istifadələrində olan pay torpaqlarını icbari şəkildə satın almalı (vıkup) idilər. «Əsasnamə»yə əsasən 15 yaşına çatmış hər bir kişiyə 2,75 desyatindən 12 desyatinə qədər pay torpağı verilirdi. Burada pay torpağının münbitliyi mütləq nəzərə alınırdı (1, 46; 7, 28; 5, 126-128).

Pay torpaqlarının satınalma pulu elə müəyyənləşdirilmişdi ki, burada həm xəzinə (dövlət) və həm də mülkədarlar qazanır, itirən isə kəndlilər olurdular.

Nökərlər – ev qulluqçuları haqqında ayrıca qayda verilmişdi. Bu qaydaya əsasən onlar da təhkimli kəndlilər kimi, şəxsən azadlıq və mülk-pay torpağı əldə etmək hüququna malik idilər. Lakin onlar da qanun verildikdən sonra 2 il ərzində ağalarına qulluq edir və yaxud töycü ödəyirdilər. Mülkədar – zadəganlara məxsus fabrik-zavodlarda işləyən fəhlələr 2 il müddətinə töycü vermək vəziyyətinə keçirilir, onların keçmiş pay və həyətyanı torpaqları fəhlələrin xüsusi mülkiyyətinə çevrilirdi (1, 81; 5, 141-144).

Mülkədar-zadəgan torpaqlarında təhkimçilik hüququnun ləğvi hökumətin məcburiyyət qarşısında verdiyi burjua islahatı idi. Lakin islahat gedişində mülkədarların mənafei həmişə gözlənilirdi. Kəndli islahatı feodal istismarını hələ də bu və ya digər şəkildə qoruyub saxlayırdı. Vıkup (pay torpaqlarının satın alınması) ödəncləri vermək sahibkar kəndlilərinin imkanı xaricində idi. Nəhayət, islahat qeyri-iqtisadi məcburiyyəti saxlamaqla kəndli silkini mülkədarlar və dövlət hakimiyyət orqanlarından asılı vəziyyətə salmışdı.

Rusiya imperiyasında sahibkar kəndlilərlə bərabər digər kateqorayadan olan kəndlilər üçün də islahat keçirilməsi dövrün tələbi idi. Bunlardan biri xanədan kəndliləri hesab olunurdu. Onlar sayca 2 mln nəfərdən bir qədər çox olmuşdu. Heç bir vətəndaşlıq hüququna malik olmayan xanədan kəndliləri feodal töycüsü verir, nominal olaraq, "azad kənd əhli" hesab olunur və istifadə etdikləri xəzinə torpaqları əvəzinə töycü ödəyirdilər. 1863-cü il iyunun 26-da verilmiş "Əsasnamə"yə görə xanədan kəndliləri "müvəqqəti-mükəlləfiyyətli vəziyyət"dən yan keçərək dövlətin köməyi ilə pay torpaqlarını dərhal satın alırdılar. Əgər nadel-pay torpağının sahəsi az olardısa, onda kəndliyə əlavə sahə ayrılırdı. İdarə işləri sahibkar kəndlərindəki kimi idi (1, 84; 5, 264-268).

Şərqi slavyan ölkələrində kəndlilərin 48%-ni dövlət kəndliləri təşkil edirdilər (sahibkar-mülkədar kəndliləri sayca daha çox – 50% idi). 1866-cı il yanvarın 18-də çar fərmanı əsasında dövlət kəndində də islahata başlanıldı. Bu kateqoriyadan olan kəndlilərin vəziyyəti digər qruplardan əsaslı şəkildə fərqlənirdi. Onlar 1838-ci ilin

Kiselyov islahatına görə «azad kənd əhli» hesab olunurdular. Bu, şəxsi azadlıq demək idi. Torpaq məsələsində də xeyli fərq vardı. Ailənin 15 yaşına çatmış hər bir kişi üzvünə 8 desyatin, torpağın çox olduğu quberniyalarda isə 15 desyatinə qədər pay torpağı verilməsi nəzərdə tutulmuşdu. İslahat 36 quberniyanı əhatə edirdi, çünki dövlət kəndliləri bu quberniyalarda yaşayırdılar. Qanun Sibir və Uzaq Şərqə şamil edilməmişdi.

Dövlət kəndliləri islahata qədər də torpaqla yaxşı təchiz edilmişdilər. Pay torpaqları müqabilində kəndlilər dövlət xəzinəsinə «dövlət töycü vergisi» ödəyirdilər. Torpaqların vikupu – satın alınması dərhal həyata keçirilmədi. İyirmi il müddətində bu kəndlilərin dövlət idarələrindən asılılığı saxlanılmışdı. Dövlət kəndlilərinə Dövlət Əmlak Nazirliyi nəzarət edirdi. Dövlət kəndliləri icbari vıkupa yalnız 20 ildən sonra – 1886-cı ilin iyununda keçdilər (5, 291; 1, 85).

Metropoliyada kəndli islahatları keçirib müstəmləkə ölkələrini yaddan çıxartmaq olmazdı. Ona görə də 1864-cü ilin oktyabrında Kaxetiyada (Şərqi Gürcüstan), 1866-cı ilin dekabrında Meqreliyada, 1871-ci ilin fevralında Abxaziyada və həmin ilin oktyabrında isə Svanetiyada təhkimçilik hüququ ləğv edildi. 1870-ci ilin may ayında verilmiş aqrar qanuna əsasən Azərbaycanda feodal – asılı münasibətlər ləğv edilirdi. 1865-1866-cı illərdə Şimali Qafqaz ölkələrində (Dağıstan, Osetiya, Balkariya və b.) də kəndli islahatları elan edildi. 1868-ci ilin iyulunda verilmiş aqrar qanun bütünlüklə Bessarabiyaya şamil edilmişdi. Mərkəzi Asiyanın Rusiya tərəfindən işğalı başa çatdırıldıqdan sonra 1886-cı ildə bu regionda da aqrar islahatlar həyata keçirildi (5, 329-344; 1, 86; 294; 8, 182-183).

Kəndli islahatları – aqrar qanunlar verildikdən sonra kənd təsərrüfatında müsbətə doğru ciddi dəyişiklik baş vermişdi.

1877-1878-ci illərdə keçirilmiş torpaq sayımına (kadastr) görə Şərqi Slavyan ölkələrində 391 mln. desyatin yararlı torpaq sahəsi qeydə alınmışdı. Bu torpaqların 93 mln. desyatini 481 min nəfər xüsusi sahibkarlara, 131 mln. desyatini 8 mln. kəndli təsərrüfatına, 150 mln. desyatini dövlət kəndlilərinə, 9 mln. desyatin xanədan kəndlilərinə və b. məxsus idi. XIX əsrin sonunda vəziyyət əsaslı şəkildə dəyişmişdi. Mülkədar kəndində 13 mln. kəndli həyətinin 10,5 milyonu cəmi 75 milyon desyatin torpağa malik idi. Amma ictimai təbəqələşmə nəticəsində meydana gəlmiş 1,5 mln. qolçomaq təsərrüfatının sərəncamında da demək olar o qədər, yəni 70 mln. desyatin torpaq sahəsi vardı. Mülkədar-zadəganların torpaq sahələri xeyli azalaraq 62 mln.desyatinə enmişdi (1, 302; 2, 394)

Rusiyada (o zaman Ukrayna və Belorusiya bu imperiyanın tərkibində olduğuna görə bu ölkələr də nəzərə alınır) təhkimçilik hüququnun ləğvindən sonra feodal münasibətlərinin qalıqları hələ də mövcud idi. Buna baxmayaraq kənd təsərrüfatı məhsullarının əsas hissəsi kapitalist təsərrüfat sistemində əldə edilirdi. Kənd təsərrüfatı daha çox ticarət və sahibkarlıq xarakteri alırdı. Muzdlu əməyin tətbiqi geniş miqyas almış və kənddə ictimai təbəqələşmə prosesi güclənmişdi. Ölkənin müxtəlif rayonlarının ayrı-ayrı kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşması daxili bazarı genişləndirmişdi. Dənli bitkilərin xarici bazarda rolu artmışdı. Kənd təsərrüfatının dünya satış bazarı ilə bağlılığı məhsul istehsalının artırılmasına müsbət təsir göstərirdi (9, 56; 7, 61).

Rusiyanın taxıl anbarı adlandırılan Qaratorpaq zonada (əsasən Ukraynada) və Orta Volqa boyunda taxılın əsas satıcısı mülkədarlar idilər. Cənub və Volqa çayından

şərqdəki quberniyalarda isə bu işdə mühüm rolu kəndlilər oynayırdılar. Taxıl istehsalının getdikcə artmasını şərtləndirən əsas amillərdən biri kənd təsərrüfatında kapitalizmin inkişafı idi. Kəndlilərin pul ödənclərinin ildən-ilə çoxalması onları borcları pulla ödəməkdən ötrü mütləq taxıl satmağa məcbur etməsi digər amil kimi qiymətləndirilə bilər. İslahatdan sonrakı ilk 20 il ərzində hər il orta hesabla 241 milyon çetvertdən (çetvert– 8-9 puda bərabərdir) çox, daha doğrusu 2 milyard puda qədər taxıl istehsal edilmişdi. Şərqi Slavyan ölkələri taxıl ixracında dünyada birinci yerə çıxmışdılar (4, 223-224).

Şərqi Slavyan ölkələrinin ixracatının 85 %-ni kənd təsərrüfatı məhsulları təşkil edirdi. Kəndli torpaqlarının məhsuldarlığı mülkədarınkına nisbətən az idi. 1861-1870-ci illərdə kəndli hər desyatin sahədən orta hesabla 29 pud, mülkədar isə 33 pud taxıl götürürdü. Daxili və xarici bazarlarda taxıla olan tələbin artması kənd təsərrüfatının inkişafına ikili təsir göstərirdi. Bir tərəfdən dənli bitkilərin əkin sahələri genişləndirilir (ekstensiv inkişaf), o biri tərəfdən isə ayrı-ayrı regionlar taxıl istehsalı üzrə ixtisaslaşırdı. Bu isə, öz növbəsində, bütövlükdə ticarət əkinçiliyi və əmtəə maldarlığının inkişafına təkan verirdi (7, 61)

Tədqiq olunan dövrü şərti olaraq birinci və ikinci 20 illiyə bölünməsi barədə yuxarıda deyilmişdir. XIX əsrin 60-70-ci illərində, yəni birinci 20 ilin sonuna yaxın maldarlıqda da irəliləyiş nəzərə çarpırdı. Bu dövrdə Rusiya üzrə 18,6 milyon baş at, 26,2 milyon baş iri buynuzlu mal-qara, 53 milyon baş xırda buynuzlu davar, 10 milyon baş donuz və 2 milyon baş keçi vardı. Qeyri-qaratorpaq zonalarda südçülük maldarlığının yüksəlişi bilavasitə şəhərlərin inkişafı ilə bağlı idi (4, 221-225).

Texniki bitkilər sahəsində də irəliləyiş gözə çarpırdı. Qeyri-qaratorpaq zonanın şimal-qərb hissəsində kətan istehsalı güclənmişdi. Ukrayna bu baxımdan mərkəz sayılırdı. 1861-1865-ci illərdə hər il orta hesabla 165 min desyatin sahədə şəkər qamışı əkilirdi.

Həmin illərdə qeyri-qaratorpaq zonanın qərb və mərkəzi quberniyalarında kartof becərilməsi artmışdı. İldə orta hesabla 250 min pud kartof əldə edilirdi. Yeni təsərrüfat sahəsi olan tütünçülükdə də müəyyən irəliləyiş vardı. O dövrdə orta hesabla ildə 250 min pudadək tütün yarpağı yığılırdı.

Kapitalist təsərrüfat sisteminə keçmiş mülkədarlar təkmil əkinçilik alətləri tətbiq etməyə başlamışdılar. Daha güclü qolçomaq təsərrüfatlarında da bu kimi alətlərdən geniş şəkildə istifadə edilirdi. Ortabab kəndli təsərrüfatlarında dəmir kotan cütü sıxışdırıb aradan çıxarırdı. Ona görə də, birinci 20 ilin sonunda kənd təsərrüfatında mühüm bir hadisə – ictimai təbəqələşmə, yəni «kəndlilikdən çıxmaq» prosesi xeyli güclənmişdi. Kənd təsərrüfatı məhsulları istehsalında varlı kəndlilərin – qolçomaqların xüsusi çəkisi yüksəlməkdə idi. Kapitalizmə qədərki kənddə əmlak bərabərsizliyi olmuşdu, amma o heç zaman ictimai təbəqələşməyə – kənd burjuaziyası və daimi kənd təsərrüfatı fəhlələrinin meydana gəlməsinə gətirib çıxarmamışdı. Ona görə də, qolçomaqları kənddə kapitalist münasibətləri inkişafının «övladı» hesab etmək olar. Ortabab kəndlilərin hesabına varlı və yoxsul kəndli təbəqələri əmələ gəlirdi. Ticarət əkinçiliyinin genişlənməsi kənddə tacir – sələmçi zümrəsinin inkişafına şərait yaradırdı. Get-gedə möhtəkirlərin də sayı artırdı. Təkcə onu demək kifayətdir ki, ilk 20 ildə (1860-1880) Avropa Rusiyasının 50 quberniyasından yalnız 17-də işləyib ödəmə üstünlük təşkil edirdi. Qalan quberniyalarda kapitalist təsərrüfat sisteminin, yəni muzdlu əmək tətbiqinin xüsusi çəkisi yüksək olmuşdu (9, 34, 38).

Şərqi Slavyan ölkələrinin kənd təsərrüfatında kapitalizm iki yolla inkişaf edirdi. Bir yol mülkədar təsərrüfatının təhkimçilikdən tədricən (təkamüllə) inkişaf edərək burjua təsərrüfatına çevrilməsidir. Bu halda əkinçilikdə aparıcı rol mülkədara məxsus olur, əsas kəndli kütlələri isə on illərlə köləlik əzabı yolunu keçirlər. Bu yol Prussiyada geniş yayıldığı üçün bunu «Prussiya yolu» adlandırırlar. Lakin kənd təsərrüfatında kapitalist münasibətləri başqa yolla da inkişaf edirdi. Deməli, burada mülkədar təsərrrüfatı ya tamam yoxdur, ya da kapitalizm inqilabi yolla inkişaf edir. Belə olan halda əkinçilikdə aparıcı rol kəndliyə məxsus olur və kəndli kapitalist fermerə çevrilir. Bu yolun geniş miqyas aldığı ölkə Amerika olduğuna görə bu yol "Amerika inkişaf yolu" adlandırılır. Şərqi Slavyan ölkələrində hər iki inkişaf yolu mövcud idi. Təhkimçilik hüququnun hakim olmadığı regionlarda sərbəst olan kəndli əkinçiliyə girişir (Volqa arxası, Novorossiyski, Şimali Qafqaz, qismən Cənubi Qafqaz) və təsərrüfatda kapitalizm inkişaf edirdi. "Prussiya yolu" əsasən Mərkəzi və Qərb quberniyalarında üstünlüyə malik idi. Deməli, təhkimçiliyin geniş yayıldığı ərazilərdə "Prussiya yolu" daha güclü olmuşdu. Təhkimçiliyin olmadığı, yaxud zəif olduğu ərazilərdə əkinçilikdə əsas fiqur kəndli idi. Bir sıra quberniyada isə hər iki yol qarışıq şəkildə mövcud idi (1,131).

Şərti adlandırdığımız ikinci 20 il (1880-1900) əslində islahatdan sonrakı iyirmi ilin davamı olaraq qəbul edilməlidir. Amma bu dövrlər iqtisadi cəhətdən xeyli fərqlənirdilər. 80-90-cı illər iqtisadi inkişafın sürətinə görə iki yerə bölünürdü. Bunlardan biri 1881-1892-ci illərdir. Taxılın bu illərdə qiymətdən düşməsi üzündən kəndlilərin yoxsullaşması 1891-1892-ci illərin aclığı nəticəsində fəlakətlə qurtardı. Bu aclıq Qaratorpaq zonanın çox böyük hissəsini bürümüşdü. 1893-1900-cü illər iqtisadi yüksəliş illəri hesab olunur. Taxılın bazar qiymətinin aşağı düşməsi 90-cı illərin ortasında dayanmışdı. Başqa sözlə desək, bu dövr Şərqi Slavyan ölkələrinin ictimai-iqtisadi inkişafında kapitalizmə qədərki dövrün sonu, yekun dövrü təki qiymətləndirilməlidir.

XIX əsrin son rübündə Avropa ölkələrinin kənd təsərrüfatı durğunluq dövrü keçirirdi. Aqrar böhran hesab edilən bu vəziyyətin başlıca səbəbi 70-ci illərin ortalarından taxılın qiymətdən düşməsi idi. On beş il ərzində qiymətlər 2 dəfə ucuzlaşmışdı. Ucuzlaşmanı şərtləndirən əsas amil Amerika, Kanada, Argentina, eləcə də Avstraliyada maya dəyəri aşağı olan taxılın Avropaya gətirilməsi idi. Gəmiçilikdə texniki tərəqqi taxılın gətirilmə xərcini aşağı salmışdı. Ona görə də, Avropa ölkələri nisbətən ucuz və keyfiyyətli taxılla doldurulurdu (2, 252).

Aqrar böhran Rusiyaya da təsir göstərmişdi. 80-90-cı illərdə kənd təsərrüfatı məhsullarının, xüsusən taxılın ixrac tempi-sürəti zəifləmişdi. İkinci 20 ildə taxıl istehsalı 1,5 dəfə artaraq 3,3 milyard puda çatmışdı. İxracat da 1880-ci ildəki 287 mln. puddan 1900-cü ildə 444 milyon puda qalxmışdı. Taxılın məhsuldarlığında xeyli artım vardı. Kəndli təsərrufatından 1891-1900-cü illərdə hər desyatindən 39 pud, mülkədar təsərrüfatından isə 47 pud taxıl götürülmüşdü. Məhsuldarlığın artmasında aqrotexniki qaydaların tətbiqi böyük rol oynayırdı.

Çar hökuməti taxıl ixracına xarici ticarətin aktiv balansını saxlamaq üçün bir vasitə kimi baxırdı. İ.A.Vışneqradski (keçmiş maliyyə naziri) deyirdi ki, özümüz ac qalsaq da, mütləq taxıl ixrac etməliyik (1, 298).

Texniki bitkilər sahəsində də böyük yüksəliş vardı. 90-cı illərdə kətan istehsalı 30 %-dən çox artmışdı. 1900-cü ildə 1050 min desyatin sahədən 17 milyon pud kətan

götürülmüşdü. Ukrayna şəkər qamışı yetişdirilməsində həlledici rola malik idi. Bəhs olunan illərdə 300 min des. çox sahədə şəkər qamışı əkilirdi. Şəkər çuğunduru əkilən sahələr də genişlənmişdi. 1900-cı ildə 300 min desyatindən çox sahədə çuğundur əkilirdi. Bu, 60-cı illərdəkindən 3 dəfə çox idi.

Maldarlıqda da ciddi dəyişiklik baş vermişdi. 1883-cü ildə Avropa Rusiyasında 17,4 mln. baş at, 23 mln. baş iri buynuzlu mal-qara, 47,5 mln. baş davar, 9 mln. baş donuz olmuşdusa, 1900-cü ildə atların sayı 19,7 mln. başa, iri buynuzlu mal-qara 33 mln. başa, davar 49,6 mln. başa və donuzlar 11 mln. başa çatmışdı (1, 298; 4, 218).

Maldarlıq məhsulları istehsalının həcmi də genişlənmişdi. Təkcə onu demək lazımdır ki, 1900-cü ildə Avropa Rusiyası quberniyalarında 4 mln. manatlıq pendir istehsal edilmişdi (4, 221).

Məqalənin əvvəlində qeyd etdiyimiz kimi, ikinci 20 il ərzində zadəganlar 20 mln. desyatindən çox torpaq itirmişdilər. Yalnız Pribaltika və qərb quberniyalarında onlar nisbətən az ziyan çəkmişdilər. Çar hökuməti bu prosesi ləngitmək və zadəganlara kömək məqsədilə 1882-ci ildə Kəndli torpaq bankı, bundan 3 il sonra – 1885-ci ildə isə Zadəgan torpaq bankı yaratdı. Zadəgan bankı zadəgan – mülkədarlara güzəştli şərtlərlə borc verməklə onların mülklərini girov götürmək məqsədini güdürdü. Kəndli torpaq bankı mülkədar torpaqlarının xırda hissələrlə satın alınmasında kəndlilərə kömək etməli idi. Əslində bu bank kəndlilərdən daha çox mülkədarlara xidmət göstərirdi. İslahatdan sonrakı dövrdə torpağın qiyməti durmadan artırdı. Mülkədar torpaq sahibliyinin hökumət tərəfindən müdafiə olunması kəndli təsərrüfatlarının inkişafına mane olur və kəndlilərin vəziyyətini ağırlaşdırırdı (1, 302; 3, 252, 256).

Belə bir şəraitdə ictimai təbəqələşmə prosesi güclənməkdə idi. Hesablamalara görə yoxsul kəndli təsərrüfatları ümumi kəndli həyətlərinin 50 %-ni təşkil edirdi. Onlar – yoxsul kəndlilər əhalinin 40 %-i qədər idi. Həm də onların əlində əkin sahələrinin 25 %-i və iş heyvanlarının 30 %-ə qədəri toplanmışdı. Çoxları iş heyvanı olmadığına görə torpaqlarını tavanalı həmkəndlilərinə – qolçomaqlara icarəyə verməyə məcbur olurdu. Təkcə 70-ci illərdə nadel-pay torpaqlarından 11,6 milyon desyatin, yaxud bütün pay torpaqlarının 9 %-i qolçomaqlara icarəyə verilmişdi. Sonrakı dövrlərdə, yəni 80-90-cı illərdə bu rəqəm 2,5 dəfədən çox artmışdı (4, 55, 66).

Tavanalı kəndli – qolçomaq təsərrüfatları bütün kəndli həyətlərinin 20 %-dən azını və kənd əhalisinin yalnız 10 %-ni təşkil edirdilər. Lakin onlar qəbalə torpaqlarının əksər hissəsinə və icarə torpaqlarının yarıdan çoxuna malik idilər. Ona görə də, əkin sahələri və mal-qaranın 50 %-ə qədəri, iş heyvanlarının böyük əksəriyyəti, kənd təsərrüfatı alətlərinin 70 %-i onların sərəncamında idi. Pribaltikada qolçomaqların xüsusi çəkisi yüksək olmuşdu. Stavropol – Kubanda mülkədarlar yox dərəcəsində olduğuna görə burada maldarlıq əmtəə xarakteri almışdı. Muzdurların 50-60 %-i tavanalı kəndlilərin torpaqlarında işləyirdi. Kənd əhalisi sayca artdıqca torpaqsız və aztorpaqlı kəndlilərin sayı çoxalırdı. Bütün bu amillər ictimai təbəqələşməni sürətləndirirdi. Başqa sözlə desək, islahatdan sonrakı Rusiya kəndinin sosial siması «kəndlilikdən çıxma» ilə xarakterizə olunurdu. Dərin ictimai təbəqələşmə prosesi nəticəsində ortabab kəndlilər hesabına kənd burjuaziyasının və daimi kənd təsərrüfatı fəhlələrinin sayı getdikcə artırdı. Kəndlilər parçalandıqca pay torpağı olan kəndlilərin vəziyyəti getdikcə ağırlaşır, yoxsulların sayı çoxalırdı. Deməli, bir qütbdə varlanma, digər qütbdə isə yoxsullaşma prosesi gedirdi. Kapitalizmə xas olan bu proses təhkimçilik qalıqlarının hələ də güclü olduğu ərazilərdə nisbətən ləng gedirdi. Yoxsul

kəndlilərin əksəriyyəti özlərinin pay torpaqlarını becərmək iqtidarında deyildi. Çünki onların əkinçilik alətləri, iş heyvanları və s. ya tamam yox idi, ya da kifayət deyildi. Ona görə də, onlar bu torpaqları qolçomaqlara, əvvəl deyildiyi kimi, icarəyə verməyə məcbur olur, bir müddət keçəndən sonra isə onu tamam itirərək iş axtaran ordunun sırasını sıxlaşdırırdılar.

Görkəmli iqtisadçı P.Lyaşşenkonun hesablaşmasına əsasən əsrin sonunda Avropa Rusiyasında torpağı olmayan kəndlilərin sayı 4 milyon nəfərdən çox idi (7, 28-29 ). Sonrakı dövrlərdə isə belələrinin sayı bir neçə dəfə artmışdı. Hələ 80-ci illərdə kəsbkarlığa gedənlərin sayı 3,7 milyon nəfərə çatırdı.

Əsrin sonuna yaxın Avropa Rusiyasında 25 milyon desyatinə qədər torpaq icarəyə götürülmüşdü. İcarə əvəzində pul ödənilməsi prosesi güclənmişdi. Kapitalizmin kənd təsərrüfatına nüfuz etməsi əhalinin yoxsullaşmasını artırırdı. Təsadüfi deyildir ki, 1900-cü ildə Avropa Rusiyasının yalnız 50 quberniyasında aqrar əhali artıqlığı 23 milyon nəfər olmuşdu. Başqa cürə də ola bilməzdi. Çünki torpaq icarə edən kəndlinin ümumi gəlirinin 34 %-i və xalis gəlirin 80 %-dən çoxu icarə əvəzində torpaq sahibinə verilirdi. Belə bir şərait əhalinin mütəhərrikliyini artırmışdı. Pay torpağını satıb kəsbkarlığa gedən kəndlilərin sayı ildən-ilə çoxalırdı. Əgər 1867-ci ilədək bu yolla 8,6 milyon desyatin torpaq satılmışdısa, 1893-1897-ci illərdə satılmış torpaqların ümumi sahəsi 17,5 milyon desyatinə qalxmışdı (4,188).

Kapitalist əmtəə istehsalı mövzunun maraqlı məsələlərindəndir. XIX əsr və XX əsrin ayrıcında Avropa Rusiyasında hər il satışa gedən taxılın 38 %-ni qolçomaq – varlı kəndli təsərrüfatları verirdi. Bunun 25 %-i daxili bazarda, 13 %-i isə xarici bazarda satılırdı. Mülkədar təsərrüfatlarının xüsusi çəkisi az-12 % idi. Bu təsərrüfatlarda istehsal olunan taxılın yalnız 5,6 %-i ixracata gedirdi. Ortabab və yoxsul kəndli təsərrufatları taxılın ümumi həcminin 50 %-ni vermələrinə baxmayaraq, burada ixracat 7,4 %-dən çox deyildi (9, 34; 6, 224-226). Göründüyü kimi, qolçomaq və kəndli təsərrüfatları əmtəəlik taxılın istehsalında həlledici rola malik idilər

## ƏDƏBİYYAT


1. Çoxcildli «SSRİ tarixi» (rusca), V c. M.: Наука, 1968, 731 s.
2. Хромов П.А. Экономическое развитие России в XIX-XX веках. М.: Наука, 1950, 551с
3. Ковальченко И.Д., Милов Л.В. Российский аграрный рынок. XVIII-начало XX века. М.: Наука, 1974, 414 с.
4. Анфимов А.М. Крестьянское хозяйство Европейской России. 1881-1904. М.: Наука, 1980, 339 с.
5. Зайончковский П.А. Отмена крестьянского права в России. М.: Наука, 1968, 367 с.
6. Нифонтов А.С. Зерновое производство России во второй половине XIX века. М.: Наука, 1974, 317 с.
7. Ляшенко П.И. История народного хозяйства СССР, В 2-х т. т. II, М.: Наука, 1956, 735 с.
8. Azərbaycan tarixi, IV cild, Bakı: Elm, 2000, 456 s.
9. Немчинов В.С. Сельскохозяйственная статистика с основами общей теории. М.: Наука, 1945, 477 с.
10. Китанина М. Хлебная торговля России в 1875-1914 гг. М.: Наука, 1978, 361 с.

## О ПОЛОЖЕНИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В ВОСТОЧНОСЛАВЯНСКИХ СТРАНАХ В 60-90-х гг. XIX ВЕКА

**Т.Т.ВЕЛИЕВ**

**РЕЗЮМЕ**

Восточнославянские страны на много отставали от развитых Европейских стран. Основным фактором отсталости являлось существование крепостного права. По этому царь Александр II в 60-х годах издал указ о ликвидации крепостного права. Крестьяне освободились от личной зависимости. После этих реформ в сельском хозяйстве наблюдались определенные изменения. Если в конце 60-х годов было собрано почти 2 млд. пудов зерна, то в 1900-х годах объем производства зерна достигал до 3,3 млд. пудов. Усилился процесс социального расслоения крестьян. Отдельные регионы специализировались по производству товарного зерна. Расширилось отходничество крестьян.

## ON THE STATE OF AGRICULTURE IN EASTERN SLAV COUNTRIES IN THE 60-90S OF THE XIX CENTURY

**T.T.VALIYEV**

**SUMMARY**

Countries of eastern Slav stood back from the developed European countries. The basic factor of this was serfdom. Therefore, Tsar Aleksandr II issued a decree about the liquidation of serfdom. The peasants became free from the personal dependence. After these reforms there were some striking changes in agriculture. While at the end of the 60s about 2 milliard poods of harvest was gathered, in the 1900s the capacity of the production increased about to 3,3 milliard poods.